# Qəbələdə kamera konsertində dünya şöhrətli bəstəkarların əsərləri səsləndirilib

VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində avqustun 4-də Heydər Əliyev Konqres Mərkəzində növbəti kamera konserti olub.

AZƏRTAC xəbər verir ki, konsertdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru, xalq artisti Murad Adıgözəlzadə və Almaniyanın Nürnberq Musiqi Akademiyasının müəllimi Nərgiz Səmədova pianoda K.Sen-Sans, C.Vilyams, Niyazi,



F.Əmirov, İ.Frolov, F.Kreysler, F.P.Tosti, E.de Kurtis, Ç.A.Biksio və A.Şilkloperin əsərlərini səsləndiriblər.

Konsertdə, həmçinin Bakı Musiqi Akademiyasının Gənclər Kamera Orkestrinin konsertmeysteri Ümidə Abbasova (violin), bir sıra beynəlxalq müsabiqələrin qalibi, rusiyalı Arkadi Şilkloper (valtorna) iştirak edib.

Tanınmış musiqiçilərin ifaları tamaşaçılara unudulmaz anlar yaşadıb.